AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

20 DEKABR 2024-cü il CÜMƏ № 281 (8039) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

# Etibarlı tərəfdaşlar

***Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini də dünya dövlətləri ilə qarşılıqlı dostluq və əməkdaşlıq münasibətlərinin qurulması təşkil edir. Birgə imzalanan bəyannamələr, müxtəlif əhəmiyyətli sənədlər ölkəmizin dünya səviyyəsində nüfuzunu daha da artıraraq önəmli tərəfdaşlardan birinə çevrilməsinə əsas verir. Azərbaycanın hərtərəfli müttəfiqlik münasibətləri qurduğu dövlətlərdən biri də Rusiya Federasiyasıdır. Bu iki dövlətin tarixinə qısa bir nəzər saldıqda, əməkdaşlıq münasibətlərinin möhkəm köklərə dayandığını görə bilərik.***



"Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır və düşünürəm ki, buna Azərbaycan və Rusiyada heç şübhə yoxdur". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində deyib. Bildirib ki, ölkələrimiz üçün çətin vaxtlarda biz həmişə həm vəziyyətin dərk olunmasını nümayiş etdirmişik, həm də özümüzü dostcasına aparmışıq. Dövlət başçısı bundan sonra da belə olacağına əminliyini ifadə edib. İqtisadi-ticari əməkdaşlıq üçün fəal şəkildə yeni sahələr tapmağa davam edirik. Azərbaycanın həm Qərbdə, həm də Şərqdə müstəqil siyasət yürüdən bir ölkə kimi qəbul edildiyini qeyd edərək vurğulayıb: "Biz həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkəyik. Dünyada belə ikinci bir ölkə yoxdur". Əslində, bu, ulu öndər Heydər Əliyev, daha sonra Prezident İlham Əliyevin apardığı balanslı siyasətin yüksək nümunəsidir.

**Regionun təhlükəsizlik məsələləri bu gün də əvvəlki kimi Azərbaycan-Rusiya münasibətlərində aktual olaraq qalır**

Azərbaycan və Rusiya arasındakı dövlət səfərləri və müzakirələr iki ölkə arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərinin əsasını təşkil edir. 2022-ci ilin fevralından etibarən daha da intensivləşən əməkdaşlıq müxtəlif sahələrdə irəliləyişə və yeni imkanların yaranmasına zəmin yaratmışdır. Belə ki, 2022-ci ilin 22 fevral tarixində Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" xüsusi əhəmiyyət daşıyır. Hər iki dövlətin xarici siyasət strategiyası üçün mühüm əhəmiyyət kəsb edən bu Bəyannamənin müddəaları uğurla həyata keçirilir. Cari ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Moskvaya dövlət səfəri etmiş, iyulun 4-də isə Qazaxıstanın paytaxtı Astana şəhərində "ŞƏT plyus" formatında görüşdə dövlət başçıları yenidən görüşmüşdülər.

(davamı 3-cü səhifədə)

(əvvəli 1-ci səhifədə)

# Regionun təhlükəsizlik məsələləri bu gün də əvvəlki kimi Azərbaycan-Rusiya münasibətlərində aktual olaraq qalır



2024-cü ilin 19 avqust tarixində Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana rəsmi səfəri və bu zaman qəbul edilən sənədlər ölkələrimiz arasında dostluq və müttəfiqlik münasibətlərinin inkişafına böyük töhfə vermişdir.

Onu da qeyd edək ki, Cənubi Qafqaz hər zaman böyük güclərin diqqətində olub. Region ölkələrinin birqütblü siyasət yürütməsinin ağır fəsadları olur. Misal üçün, Gürcüstan və Ermənistan fərqli vaxtlarda həm Rusiya, həm də Qərbməyilli siyasət yürüdür. Nəticədə hər iki ölkədə rəngli inqilab ssenariləri, ya da Gürcüstandakı kimi separatçılığın pik həddi yaşanıb.

Prezidentin müsahibəsində diqqətçəkən digər məqam isə Azərbaycanın xarici siyasəti ilə bağlı dediklərdir. Bu gün beynəlxalq münasibətlər, beynəlxalq hüquq dediyimiz anlayışlar İkinci Dünya müharibəsi nəticəsində yaranıb. Yəni kifayət qədər köhnəlib və qeyri-effektiv hal alıb. Misal üçün, Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə baş verənlər, İsrail-İran gərginliyi, Tayvan, Kipr, Kəşmir, Kosova, Abxaziya, Cənubi Osetiya münaqişələrinin həllinin dalana dirənməsi bunu bir daha təsdiqləyir.

Tək regionda deyil, dünyada da nüfuzu gündən-günə artan Azərbaycan təhlükəsizlik və davamlı iqtisadi inkişaf baxımından əhəmiyyətli strateji ölkə statusunu saxlayır. Azərbaycan Rusiya üçün böyük dost, müttəfiq, strateji tərəfdaşdır və çoxlu müştərək layihələr həyata keçirilir. Bu, digər məsələlərlə yanaşı, iqtisadi əlaqələrin inkişafı baxımından da vacibdir. Rəsmi Bakının siyasi iradəsi, təşəbbüskarlığı, ölkəmizin iqtisadi gücü təkcə Azərbaycan üçün yox, bütün region üçün tənzimləyici və lokomotiv funksiyasını yerinə yetirir. Bu mənada, Azərbaycanın istər bölgə daxilində, istərsə də beynəlxalq miqyasda əməkdaşlıq əlaqələri, həyata keçirdiyi və ya dəstək verdiyi layihələr mühüm rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin də bunu xüsusi qeyd ediblər. Bütün istiqamətlər üzrə müsbət dinamika müşahidə edilir, dövlətlər səviyyəsində müntəzəm siyasi dialoq mövcuddur. Həm də Azərbaycan və Rusiya beynəlxalq arenada bir-birini dəstəkləyir. Azərbaycan Rusiya üçün həm iqtisadi nöqteyi-nəzərdən, həm də Şimal-Cənub, Xəzər dialoqu üzrə geostrateji layihələr, bütövlükdə regionda təhlükəsizlik məsələləri baxımından da əhəmiyyətlidir.

Ölkələrimiz və tərəfdaşlarımızı birləşdirən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi yükdaşımaların təhlükəsizliyi baxımından və bir çox ölkələr arasında ticari münasibətləri stimullaşdırmaq üçün qlobal əhəmiyyətə malikdir. Burada regional təhlükəsizlik məsələləri xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçıları da vurğulayıblar ki, onlar öz həllini sürətlə tapır. Rusiya Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik üzrə əsas ölkədir. Ölkələrimiz arasında əməkdaşlıqdan, qarşılıqlı fəaliyyətdən çox şey asılıdır. Biz qarşılıqlı fəaliyyət və maraqlar ruhunda etimad tədbirlərinin, əməkdaşlığın, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə və bütün məsələlərin nizamlanmasına çalışırıq. Həqiqətən də Cənubi Qafqazda təhlükəsizlik məsələləri bu gün də əvvəlki kimi Rusiya-Azərbaycan münasibətlərində son dərəcə aktual olaraq qalır. Dövlət başçısı bundan sonra da belə olacağına əminliyini ifadə edib. Deyib ki, iqtisadi-ticari əməkdaşlıq üçün fəal şəkildə yeni sahələr tapmağa davam edirik.

Azərbaycan və Rusiya arasındakı münasibətlər təkcə siyasi və diplomatik sahələrdə deyil, həmçinin iqtisadi, hərbi və humanitar sahələrdə də davamlı inkişaf edir. Son illərdə hər iki dövlət arasında bir sıra mühüm razılaşmalar imzalanıb ki, bu da tərəflər arasındakı dostluq və əməkdaşlığın davamlı olacağını göstərir. Xüsusilə, Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsi son illərdə əhəmiyyətli dərəcədə artıb. Rusiya Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biridir və iki ölkə arasında ticarət dövriyyəsi milyard dollarlarla ölçülür. Energetika sahəsində əməkdaşlıq da iki ölkə üçün prioritetdir. Hər iki ölkə neft və qaz sahəsində böyük layihələrdə iştirak edir və bu layihələr region üçün mühüm iqtisadi əhəmiyyət daşıyır. Dostluq münasibətlərinin davamlı olmasını təmin edən digər bir vacib sahə isə humanitar əməkdaşlıqdır. Hər iki ölkə arasında təhsil, mədəniyyət və idman sahələrində bir sıra birgə layihələr həyata keçirilir. Bu layihələr gənc nəsil arasında qarşılıqlı anlaşmanın artırılmasına və ölkələr arasında mədəni mübadilənin inkişafına töhfə verir. Regional təhlükəsizlik məsələsi Azərbaycan və Rusiya arasındakı əməkdaşlığın əsas istiqamətlərindən biridir. Cənubi Qafqaz regionu geosiyasi baxımdan mühüm əhəmiyyətə malik olduğu üçün, burada sabitliyin təmin edilməsi hər iki dövlət üçün prioritetdir. Həmçinin sərhəd təhlükəsizliyi məsələlərində də hər iki ölkə arasında əməkdaşlıq mövcuddur. Rusiya ilə Azərbaycan arasında sərhəd təhlükəsizliyinin təmin edilməsi regionda sabitliyin qorunması üçün mühüm addımlardan biridir.

"Şimal-Cənub" nəqliyyat dəhlizi Azərbaycan ilə Rusiya arasında ən mühüm infrastruktur layihələrindən biri hesab olunur. Bu dəhliz Azərbaycan ərazisindən keçməklə, İran, Rusiya və Avropa ölkələrini birləşdirir. Dəhliz vasitəsilə həm dəmir, həm də avtomobil yolu üzrə yük daşımalarının artması gözlənilir ki, bu da Azərbaycanın beynəlxalq ticarət sistemində mühüm rol oynayacağına işarə edir. Şimal-Cənub dəhlizi regional inteqrasiya baxımından da əhəmiyyətlidir. Bu layihə sayəsində region ölkələri arasında iqtisadi əlaqələr güclənir və ticarət dövriyyəsi artır. Energetika sahəsində əməkdaşlıq da iki ölkə üçün prioritetdir. Azərbaycanın neft-qaz ehtiyatları və Rusiya ilə birgə həyata keçirilən enerji layihələri regionun enerji təhlükəsizliyinə mühüm töhfə verir. Həm də elektrik enerjisi istehsalı və ixracı sahəsində də iki ölkə arasında əməkdaşlıq davam edir. Həmçinin ekoloji fəlakətlərin qarşısının alınması və təbiətin qorunması istiqamətində də birgə layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bu əməkdaşlıq regionun dayanıqlı inkişafına və ekoloji sabitliyin təmin olunmasına xidmət edir.

Geniş müsahibəsində Türkiyə ilə Azərbaycan arasındakı hərbi əlaqələrdən danışan Prezident İham Əliyev diqqətə çatdırıb ki, Türkiyə ilə hərbi əlaqələrimiz müstəqilliyimizin ilk günlərində qurulub və bu gün də davam edir. Türkiyə Azərbaycan ordusunun modernləşdirilməsində və yüksək standartlara çatmasında mühüm rol oynayır. Vurğulanıb ki, Azərbaycan Türkiyə ilə hər il 10-dan çox birgə təlim keçirir. Bu təlimlərin yarısı Azərbaycanda, yarısı isə Türkiyədə keçirilir. Artıq mahiyyət etibarı ilə hərbi əməliyyatların yüksək dərəcədə keçirilməsinə nail olunub. Təbii ki, bu da öz növbəsində Qafqazda sabitliyin mühüm amilidir. Türkiyə ilə Azərbaycan arasında imzalanan müttəfiqlik bəyannaməsində təhdidlərə və hücumlara qarşı hərbi yardımı nəzərdə tutan maddə var. Xaricdən bir hücum olarsa, köməyə gəlmək həm Azərbaycanın, həm də Türkiyənin öhdəliyidir. Buna görə də bu maddə iki ölkədən birində digərinin hərbi bazasının olmasını lazımsız edir.

Azərbaycan Prezidenti İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində ölkə və regional əhəmiyyət kəsb edən məsələlərlə yanaşı, bütövlükdə bir çox mühüm qlobal məsələlər də yer alıb. Müsahibədə diqqətçəkən məqamlardan biri də Ermənistanla Azərbaycan arasında sülh prosesinə mane olan beynəlxalq güclərin, o cümlədən keçmiş Minsk qrupunun həmsədri olmuş Fransa ilə bağlı səsləndirilən fikirlərdir. Prezident bildirib ki, işğal başa çatdıqdan sonra Fransanın Azərbaycana qarşı həmlələri, regionda möhkəmlənmək cəhdləri artdı, bu istiqamətdə hər cür qərəzli, riyakar addımlara əl atdığı göz önündədir. Ermənistanı onun istəyinə əks olaraq revanşizmə sürükləyən Emmanuel Makron hakimiyyəti hər vəchlə bölgəni müharibəyə sürükləyir. Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır. Prezidentin də dediyi kimi, Fransanın bu hərəkətlərini uzaqdan müşahidə etmək olmaz.

Əksər müsahibələrində və çıxışlarında olduğu kimi, bu müsahibəsində Ermənistanın havadarları, xüsusilə də Fransanın regionumuz üçün təhlükə yaradan siyasətindən danışan dövlət başçısı vurğulayıb: "Yəni, Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil. Hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir". Ölkə başçısı deyib ki, Ermənistanla sərhədimizin uzunluğu min kilometrdən çox olduğunu, bir çox yaşayış məntəqələrinin sərhədə yaxın yerləşdiyini və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlərin qayıtdıqlarını nəzərə aldıqda, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik: "Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir". Dövlət başçısı Ermənistana növbəti dəfə reallıqları qəbul etməyə, bir daha tələyə düşməməyə çağırış edib. Prezident əlavə edib ki, ermənilər İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar.

**Mustafa KAMAL,**
**"Respublika".**